## Vergi və cinayət: qanunsuz maliyyə fəaliyyətinin aşkar edilməsi

Bu günlərdə Türkiyənin paytaxtı Ankarada İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergi və cinayət: qanunsuz maliyyə fəaliyyətinin aşkar edilməsi» mövzusunda seminar keçirilmişdir.

12 ölkədən 25 nümayəndənin iştirak etdiyi seminarda çirkli pulların yuyulması və rüşvətxorluq kimi cinayətlərin əlamətləri müzakirə edilmişdir. Korrupsiya, maliyyə terrorizmi, vergi cinayətləri və dələduzluqla bağlı maliyyə cinayətlərinin aşkar olunmasında dövlət orqanlarının rolu və onlara qarşı mübarizə mexanizmlərinin geniş təhlil edildiyi tədbirdə maliyyə cinayətlərinə qarşı mübarizə sahəsində formalaşmış beynəlxalq təcrübə barədə məlumat verilmiş və iştirakçı dövlətlərin təcrübəsi dinlənilmişdir.

Müzakirələr zamanı çirkli pulların yuyulmasına qarşı mövcud problemlərin aşkar edilməsi, bu cinayətlərə qarşı mübarizə sahəsində çalışan şəxslərin uzunmüddətli treninqlərinin təşkil edilməsi, qeyd olunan neqativ hallara qarşı mübarizənin metod və üsullarının ölkələr arasında təcrübə mübadiləsi yolu ilə təkmilləşdirilməsi istiqamətində təkliflər səslənmişdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsinin rəis müavini Miri Bağırov və Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentinin Hüquq şöbəsinin rəisi Vüqar Qurbanov təmsil etmişlər.